# Azərbaycan MDB-də sosial rifah göstəricilərinə görə də öndədir



"İnsan kapitalı texnoloji inkişafın sürətləndiyi bir dövrdə həm innovativ dünyanın, həm də iqtisadiyyatın əsas təkanverici qüvvəsi hesab oluna bilər. Sosial rifah içində yaşayan, tərəqqi edən və savadlanan əhali hər bir ölkənin inkişafı üçün əvəzedilməz resursdur. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin siyasi-iqtisadi mövqeyində də sosial məsələlər öndə yer alır. Xüsusilə ötən il aparılan bir sıra kütləvi sosial islahatlar da bunun bariz nümunəsidir".

Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin analitiki Məsumə Talıbova adı çəkilən Mərkəzin saytında yerləşdirilən məqaləsində yazıb. Məqalədə qeyd olunur ki, ötən il həyata keçirilən və 3,9 milyard manat maliyyə yükü ilə 4,2 milyon insanı əhatə edən sosial paket vətəndaşların maddi vəziyyətinin yaxşılaşması istiqamətində görülən önəmli tədbirdir. Sosial islahat paketi minimum əməkhaqqının, minimum pensiyanın, eyni zamanda təqaüd və müavinətlərin artırılması, o cümlədən problemli və vaxtı keçmiş kreditlərin geri qaytarılması və restrukturizasiyası kimi önəmli islahat tədbirlərini özündə ehtiva edir.

Müəllif daha sonra yazır ki, keçən il ərzində minimum əməkhaqqı 2 dəfəyə qədər artırılaraq 130 manatdan 250 manata çatdırılıb: "Bu gün Azərbaycan alıcılıq qabiliyyəti pariteti nəzərə alınmaqla minimum əməkhaqqı göstəricisinə görə, MDB ölkələri arasında 2-ci yerdədir. Qonşu ölkələrlə müqayisədə bu göstərici Ermənistandan 2,1, Qazaxıstandan 1,6, Gürcüstan və Rusiyadan isə 1,4 dəfə yüksəkdir. Bu da öz növbəsində Azərbaycan vətəndaşının alıcılıq qabiliyyətinin yüksək olduğunu, minimal əməkhaqqı ilə də digər ölkələrlə müqayisədə sosial rifahının daha yüksək olduğuna işarədir. Əməkhaqlarının artımı isə orta aylıq əməkhaqqının artmasına gətirib çıxarıb. Alıcılıq qabiliyyəti paritetinə əsasən orta aylıq əmək haqqına görə, Azərbaycan MDB-də 2-ci yerdədir. Müqayisə üçün Ermənistanın 9-cu yerdə olduğunu da qeyd etmək olar".

Əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində həyata keçirilən digər islahat tədbiri, pensiyaların artırılmasından yazan müəllif vurğulayır ki, bu islahat 2019-cu il ərzində əmək pensiyalarının 72 faiz artımı ilə Azərbaycanı MDB məkanında minimal pensiyanın dollarla ifadəsinə görə ilk yerə yüksəltmiş oldu. Bu göstərici Ermənistanın minimal pensiya göstəricisindən 3,7, Gürcüstanın göstəricisindən 2, Rusiyanın göstəricisindən 1,3, Qazaxıstanın minimal pensiya göstəricisindən isə 1,1 dəfə çoxdur. Orta pensiya göstəricisinə görə isə Azərbaycan MDB-də 2-ci yerdədir. Müqayisə üçün bildirək ki, bu göstərici üzrə Ermənistan 10-cudur.

Yeri gəlmişkən, Azərbaycanın sosial müdafiə xərcləri də Ermənistanla müqayisədə 3 dəfədən çoxdur. Bu barədə yazan müəllif qeyd edir ki, Azərbaycanın 2020-ci il dövlət büdcəsində sosial müdafiə xərcləri 3,8 milyard dollar olduğu halda, Ermənistanda həmin rəqəm cəmi 1,1 milyard dollardır.

Məlumdur ki, keçən ilin böyükmiqyaslı digər sosial layihəsi Prezident tərəfindən fiziki şəxslərin problemli kreditləri ilə bağlı məsələnin həll edilməsi olmuşdur. Nəticədə fiziki şəxslərin kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi dövlət büdcəsinin vəsaiti hesabına ödənilmişdir. Digər ölkələrdə problemli kreditlərin həlli istiqamətində həyata keçirilən müxtəlif modellərlə müqayisədə öz sosial yönümlülüyü ilə seçilən bu layihədən ümumilikdə 800 mindən artıq əhali yararlanmışdır.

Azərbaycanda son illər ardıcıl xarakter alan sosial müdafiə tədbirlərinə toxunan M.Talıbova yazır ki, əhalimizin sayının digər sahələrdə qeydə alınan inkişaf fonunda 1991-ci ildən bugünədək 40 faiz artması ölkədə həm də yaşayış şəraitinin inkişaf etdiyini təsdiqləyir: "Əhalinin artım sürəti ümumi iqtisadi, intellektual və mədəni inkişafdan və modernizasiyadan asılı olaraq dəyişir. Əhali artımı inkişaf etmiş ölkələrdə əsasən miqrasiya göstəricisinə, əksinə, zəif inkişaf etmiş ölkələrdə isə demoqrafik məhsuldarlıq səviyyəsinə görə baş verir. Azərbaycanda isə bu, hər iki istiqamətdə müşahidə olunur. Belə ki, Azərbaycanda demoqrafik məhsuldarlıq beynəlxalq statistika mənbələrinə görə, 1,89 göstəricisi ilə bütün inkişaf etmiş ölkələrdən, eləcə də Rusiya (1,61), Ermənistan (1,64), Gürcüstan (1,76), hətta Çindən (1,6) daha çoxdur".

Müəllif yazır ki, əhalinin həyat şəraitinin keyfiyyət göstəricilərinə dair statistik məlumatlar da müsbət şərhlər söyləməyə imkan verir: "Azərbaycanda yoxsulluq səviyyəsi son 10 ildə ən aşağı həddə çataraq 4,8 faiz olmaqla MDB ölkələri arasında 2-ci yerdədir. Müqayisə üçün bildirək ki, Ermənistan 23,5 faiz göstərici ilə 8-cidir. Ümumi, o cümlədən gənclər arasında işsizlik səviyyəsi Azərbaycanda müvafiq olaraq 4,8 və 9,1 faiz olmaqla Ermənistanla müqayisədə 4 dəfə azdır".

M.Talıbova məqaləsinin sonunda yazır: "Statistik göstəricilərdən də göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə aparılan kompleks islahatlar öncə vətəndaş məmnunluğu, sosial rifahın yaxşılaşması, əhalinin sosial-mədəni inkişafının təmin edilməsi istiqamətində hərtərəfli dəstəyi hədəfləyərək qısa zamanda öz müsbət nəticələrini göstərir. Bu islahatlar əhalinin gəlirlərinin, yığımların, investisiya yatırımlarının artmasına, iqtisadi aktivliyin yüksəlməsinə gətirib çıxarır ki, bunun da öz növbəsində iqtisadiyyatın digər sahələrinə müsbət töhfə verəcəyi şübhəsizdir".

***"Azərbaycan"***